Təhsil Nazirliyinin

231 saylı 20.02.2008-ci il tarixli

əmri ilə təsdiq olunmuşdur

Orta ixtisas təhsili müəssisələri tələbələrinin biliyinin qiymətləndirilməsinin sistemi haqqında

ƏSASNAMƏ

Ümumi anlayış

Biliyinin qiymətləndirilməsi sistemi tələbələrin tədris fəaliyyəti nəticəsində fənnin öyrənilməsində əldə etdikləri biliklərin qiymətləndirilməsinin mövcud sistemini təkmilləşdirmək və onun səmərəliliyini artırmaq məqsədi daşıyır. Bu sistem tələbəyə fərdi yanaşmanı təmin etməklə onun tədris prosesindəki fəaliyyətinin aşağıda göstərilən əsas istiqamətlərini əhatə edir: - Nəzəri, təcrübə, laboratoriya dərslərinə davamiyyətini; - Nəzəri, təcrübə dərslərində müxtəlif formalı yoxlamalar (frontal sorğular kollokviumlar, praktiki məsələlərin həlli və s.) əsasında bilik səviyyəsinin qiymətləndirilməsini; - Laboratoriya dərslərində nəzərdə tutulmuş işlərin nəzəri cəhətdən araşdırılıb yerinə yetirilməsini və təhvil verilməsini; - kurs işinin (layihəsinin) yazılması, mövcud standartlara uyğun tərtibi və onların müdafiəsini: - təcrübələrin , (istehsalat və ya pedaqoji) nəticələrini; - buraxılış işlərinin hazırlanmasını müdafiəsini və ya dövlət imtahanlarının keçirilməsini. Tələbələrin semestr (tədris ili) ərzində fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı semestr (tədris ili) ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə görə toplanır. Balların miqdarı aşağıdakı kimi müəyyənləşdirilir: - 50 bal imtahanın və ya imtahanı olmayan fəndən yekun kollekviumun nəticəsinə görə; (yekun kollekviumu fənnin tədrisinə ayrılmış saatların hesabına sonuncu dərsdə keçirilir) - 10 bal dərslərə davamiyyətinə görə; - 10 bal kurs layihələrinin (işlərinin) müdafiəsinə görə; - 30 bal nəzəri, təcrübə və ya laboratoriya dərslərinin nəticələrinə görə. Eyni fəndən həm laboratoya və həm də nəzəri təcrübə dərsləri olduğu halda hər birinə 15 bal ayrılır. Fənn üzrə kurs layihəsi (kurs işi) nəzərdə tutulmayıbsa, ona ayrılan 10 bal nəzəri təcrübə və ya laboratoriya əlavə olunur. Əgər fənnin tədrisi yalnız məşğələ və ya seminar şəklində nəzərdə tutularsa bu zaman davamiyyətə ayrılmış 10 bal istisna olmaqla qalan 40 bal tədrisin bu növ göstəricilərinə görə hesablanır. Qrup jurnalında dərsdə iştirak etməyən tələbələrə həmin saata ”q/b” sorğulara cavab verənlərə müvafiq ”bal” dərsdə iştirak edən lakin qiymət almayanlara isə ”i/e” yazılmalıdır

Tələbə fənn üzrə maksimum 100 bal toplaya bilər. Bu balların 50-si tələbənin semestr ərzindəki fəaliyyətinə, 50-si isə imtahan nəticələrinə görə toplanır.

Semestr ərzində tələbənin fəaliyyətinə verilən 50 bal aşağıdakıları nəzərə almaqla müəyyənləşdirilir:

- Dərsə davamiyyətə görə -10 bal
- Sərbəst işlərə görə -10 bal
- Gündəlik sorğuların (nəzəri biliklərin və bacarıqların) nəticələrinə görə - 30 bal

Dərsə davamiyyətə görə balların hesablanması

Dərsə davamiyyətə görə balların hesablanmasıfənnə ayrılan saatların miqdarı nəzərə alınmaqla aparılır.Cədvəldə fənnlərə ayrılan saatların sayını (30-120 saat) nəzərə almaqla dərsə davamiyyətə görə balların hesablanması qaydası göstərilmişdir.

Kredit sistemi ilə təhsil alan tələbələrin fənn üzrə dərsə davamiyyətə görə balların hesablanması qaydası

Kreditlər	**Saat**	**10 bal**	**9bal 8% qədər**	**8 bal 8-16% qədər**	**7 bal 16-25% qədər**	**İmtahana buraxılmır**
3	45 saat	0 saat	3 saata qədər	7 saata qədər	11 saata qədər	12 saat və çox
4	60 saat	0 saat	4 saata qədər	9 saata qədər	15 saata qədər	16 saat və çox
5	75 saat	0 saat	6 saata qədər	12 saata qədər	18 saata qədər	19 saat və çox
6	90 saat	0 saat	7 saata qədər	14 saata qədər	22 saata qədər	23 saat və çox
7	105 saat	0 saat	8 saata qədər	16 saata qədər	26 saata qədər	27 saat və çox
8	120 saat	0 saat	9 saata qədər	19 saata qədər	30 saata qədər	31 saat və çox

Tələbənin nəzəri biliyinin cari qiymətləndirilməsi

Semestr ərzində tələbənin nəzəri biliyi praktik, yaxud seminar məşğələlərdə tələbədən ən azı üç dəfə sorğu əsasında 10 ballı şkala üzrə (maksimum 10 balla) qiymətləndirilir. Məsələn, tələbə gündəlik sorğulardan 6, 7 və 8 bal almışsa, onda onun orta qiyməti 7 balla qiymətləndirilir. Bu ədədi üçə vurmaqla semestr ərzində məşğələlərdə sorğular nəticəsində tələbənin topladığı yekun bal – 21 alınır. Semestr ərzində kollokviumlarda alınan qiymətlər cari sorğu qiyməti kimi hesab edilir. Gündəlik sorğuların nəticəsi müəllimin jurnalında düzəlişlərə yol verilmədən qeyd edilməlidir. Bu zaman həm müəllimin jurnalında, həm də qrup jurnalında ayrı-ayrı fənlər üçün ayrılmış müvafiq səhifələrdə hər dərs günü üçün dərsdə iştirak etməyən tələbələrə həmin saata “q/b”, sorğulara cavab verənlərə müvafiq “bal”, dərsdə iştirak edən, lakin qiymət alamayanlara isə “i/e”(iştirak etdi) yazılmalıdır. Beləliklə, tələbələrin adlarının qarşısında boş xana saxlanılmamalıdır. Bunların əsasında isə sonda tələbənin konkret fənn üzrə semestr ərzində topladığı balın yekun miqdarı göstərilməlidir. Tələbənin semestr ərzində topladığı yekun bal tələbənin biliyini obyektiv əks etdirməlidir. Bunun üçün məsuliyyət məşgələ müəlliminin üzərinə düşür.

İmtahan sessiyasının təşkili və keçirilməsi qaydaları

İmtahan sessiyası tələbələrin biliyinin qiymətləndirilməsi və nəzarəti forması olub, tədris ili ərzində iki dəfə (1-ci kurslarda bir dəfə) keçirilir. Sessiyanın başlanğıcına qədər direktorun əmri ilə hər bir şöbə üzrə münaqişə komissiyası yaradılır. İmtahanlar yazılı formada aparılır. İmtahanların aparılmasında nizam-intizama və eləcə də onun gedişinə nəzarət etmək mqsədilə fənni tədris edən müəllim ilə birlikdə həmin fənn üzrə mütəxəssis olmayan iki nəfər nəzarətçi təyin edilir. İmtahanın gedişində icazə verilmir: - danışmaq və başqalarına mane olmaq; - kitabdan, mühazirə konspektlərindən, mobil telefondan və sair icazə verilməyən materiallardan istifadə etmək; - imtahan biletini təhvil vermədən imtahandan çıxmaq. Kənar şəxslərin (təhsil müəssisəsinin rəhrəbliyinin nümayəndəsindən başqa) imtahan keçirilən auditoriyaya daxil olması qadağandır. Yuxarıda göstərilən normalara tələbə tərəfindən əməl olunmadıqda müəllim-nəzarətçi imtahan biletini və cavab blanklarını alır və onu auditoriyadan çıxarır. İmtahan üçün ayrılmış üç akademik saat başa çatdıqdan sonra cavablar yığılır, orta ixtisas məktəbinin rəhbərliyi tərəfindən müəyyən edilmiş şəxs tərəfindən kodlaşdırılır və tələbələrin yazılı cavabları fənni tədris edən müəllim tərəfindən yoxlanılaraq qiymətləndirilir. Müəllimin yazı işinə verdiyi qiymət fənn komissiyasının sədri tərəfindən təsdiq olunur. Bundan sonra imtahan nəticələri (toplanan ballar) müəllim tərəfindən xüsusi cədvəllərə köçürülür və müvafiq şöbəyə təhvil verilir. Şöbə tərəfindən semestr ərzində toplanan ballara uyğun fənn üzrə tələbənin qiyməti müəyyənləşdirilir. Nəticələr imtahan verilən gün (müstəsna hallarda növbəti iş günü) elan edilir. İmtahan nəticələri elan olunduğu gün verilən qiymətə etiraz edən tələbə ərizə ilə münaqişə komissiyasının sədrinə müraciət edir. Sədr işin yenidən yoxlanılmasını təşkil edir. Münaqişə komissiyasına ilkin yoxlamanın nəticələrinə düzəliş etmək səlahiyyəti verilir

İmtahana görə balın yığılması

Balların maksimum miqdarı 50-dir. İmtahandan və ya yekun kollekviumdan qiymət almaq üçün tələbə fənn üzrə tərtib olunmuş 5 suala cavab verməlidir Hər bir sualın cavabı 10 balla qiymətləndirilir: İmtahanın qiymət meyarları aşağıdakılardır: - 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir; - 9 bal - tələbə keçirilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu aça bilir; - 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir; - 7 bal - tələbə keçirilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələlərl əsaslandıra bilmir; - 6 bal - tələbənin cavabı əsasən düzgündür; - 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, materialı tam əhatə edə bilmir; - 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin materialı izah edərkən bəzi səhvlərə yol verir; - 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır; - 1-2 - bal tələbənin mövzudan qismən xəbəri var; - 0 bal - suala cavab yoxdur. Tələbənin imtahandan topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr (tədris ili) ərzində fəaliyyət nəticəsində topladığı bala əlavə olunmur. Akademik borcların ləğvi üçün tələbələrə 3 (üç) dəfə şərait yaradılır.Həmin borcların ləğvi orta ixtisas məktəbinin müəyyən etdiyi qayda və qrafik üzrə həyata keçirilir. Tələbələrin imtahan yazı işləri fənnin tədrisi başa çatdıqdan sonra bir semestr saxlanılır.

Təhsilalanların mənimsəmə səviyyəsinin qiymətləndirilməsi

1. yoxlama zamanı təhsilalanların 91-100%-i müsbət qiymət aldıqda “əla”(A),
2. yoxlama zamanı təhsilalanların 81-90%-i müsbət qiymət aldıqda “çox yaxşı”(B),
3. yoxlama zamanı təhsilalanların 71-80%-i müsbət qiymət aldıqda “yaxşı”(C),
4. yoxlama zamanı təhsilalanların 61-70%-i müsbət qiymət aldıqda “kafi”(D),
5. yoxlama zamanı təhsilalanların 51-60%-i müsbət qiymət aldıqda “qənaətbəxş”(E),
6. yoxlama zamanı təhsilalanların 50%-dən az (50% də daxil olmaqla) hissəsi müsbət qiymət aldıqda “qeyri-kafi”(F),

İmtahan qiymət meyarları

10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;

9 bal- tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu açıq bilir; 1, 2, 3 tam var, lakin 4-cü xüsusiyyətdə təhlil və nəticə yoxdur.

8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir; 1, 2, 3 tam var, lakin 4-cü xüsusiyyətdə yalnız birtərəfli misal var.

7 bal- tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir; 1, 2, 3 tam var, lakin 4-cü xüsusiyyət ya cüzi ya da ciddi səhvlərlə var.

6 bal-tələbənin cavabı əsasən düzgündür; 1, 2 tam var, 3-cü xüsusiyyətdə təsnifat var, ancaq qiymətləndirmə anlayışına toxunulmur və 4 yoxdur.

5 bal -tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir; 1, 2 tam var, 3-cü xüsusiyyətə isə üzdən toxunur ya da səhvlərlə yazır və 4 yoxdur.

4 bal – tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir; 1 tam var, 2-nin mahiyyətini səhvlərlə açıqlayır, 3 və 4 yoxdur.

3 bal – tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandırmağı bacarmır; 1-in mahiyyətinə varmadan ciddi səhvlərlə yazır, 2, 3 və 4 yoxdur

1-2 bal – tələbənin mövzudan qismən xəbəri var; Ciddi nöqsanlarla Tərifi yazır, 2, 3, 4 yoxdur.

0 bal - suala cavab yoxdur; Boş vərəq

Tələbələrin nailiyyətlərinin cari və yekun qiymətləndirilməsi

Tələbələrin tədris fəaliyyətini fəallaşdırmaq, onlar üçün özünənəzarət mexanizmini yaratmaq və tədrisdə əldə olunmuş nailiyyətlərini qiymətləndirmək məqsədilə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) tətbiq edilir.

$$ÜOMG = \frac{b_1k_1+b_2k_2+b_3k_3+.....b_nk_n}{K_1+k_2+k_3+.....k_n}$$

b – Tələbənin yekun imtahan balı

k - Fənnin kredit sayı

Akademik borclarla bağlı

1.Akademik borc (kəsr) nə zaman yaranır?

Akademik borc (kəsr) aşağıdakı hallarda yaranır:

· Semestr ərzində fənn üzrə dərslərin 25 % və daha artığında iştirak etməyərək, limitə düşdükdə və imtahana buraxılmadıqda;

· Semestr imtahanında 17 baldan aşağı nəticə göstərdikdə;

· İmtahana giriş balı və imtahan balının cəmi 51 balı keçmədikdə;

· İmtahan qaydalarını pozaraq imtahandan kənarlaşdırıldıqda və imtahan nəticəsi ləğv edildikdə.

2.Tələbə hansı halda imtahana buraxılmır?

Semestr ərzində fənn üzrə dərslərin 25 % və daha artığında iştirak etməyən tələbə imtahana buraxılmır və fənn üzrə akademik borc (kəsr) yaranmış hesab edilir.

3.Yaranmış akademik borc (kəsr) necə bağlana bilər?

Tələbə yaranmış borcunu (kəsr) aşağıdakı formalarda ödəyə bilər:

· Fənnin dəyərinin 25 %-ni ödəyib, fənni təkrar dinləmədən birbaşa imtahan verərək;

· Növbəti tədris ili və ya semestr ərzində alt qrupla fənni təkrar dinləyərək imtahan verməklə;

4.25 % imtahanları nədir və kimlər iştirak edə bilər?

Tələbə yaranmış akademik borcunu ödəmək üçün fənnin dəyərinin 25 %-ni ödəyərək, fənni təkrar dinləmədən birbaşa imtahanda iştrak edə bilər. Bu imtahanlar semestr imtahanlarının ardınca təşkil edilir. Hər semestr üzrə tələbəyə ən çox 2 fəndən yaranmış borcu 25 % imtanları vasitəsilə ödəmə şansı yaradılır. Aşağıdakı hallarda akademik borcu olan tələbənin 25% imtahanlarında iştirakına icazə verilmir:

· Semestr ərzində fənn üzrə dərslərin 25 % və daha artığında iştirak etməyərək limitə düşdükdə

· Üzrsüz halda imtahana gəlmədikdə və bununla bağlı rəsmi arayış təqdim etmədikdə

· İmtahandan xaric edildiyi üçün imtahan nəticəsi ləğv edildikdə

Hər fənn üzrə tələbəyə yalnız bir dəfə bu şans verilir.

Hər semestr üzrə tələbəyə yalnız 2 şans verilir.

5.Akademik borcu (kəsr) olan tələbə təqaüd ala bilərmi?

Akademik borcu (kəsri) olan tələbə növbəti semestr ərzində təqaüd almaq şansını itirir. Borcun 25 % imtahanı vasitəsilə ödənilməsi təqaüd şansını bərpa etmir. Tələbə növbəti semestri kəsrsiz başa vurduğu halda (akademik borcu ödənməmiş qalsa belə) yenidən təqaüd almaq şansını bərpa edir.

6. Kimlər təqaüd ala bilər?

Kollecə dövlət sifarişi əsasında qəbul olunan tələbələr I semestr ərzində təqaüd alırlar. II semestrdən etibarən təqaüd müsabiqə əsasında verilir. Müsabiqə əsasında təqaüd almaq üçün cari smestri kəsrsiz bitirmək və semestr imtahanlarının nəticələrinə əsasən ixtisas üzrə müəyyən edilmiş təqaüd yerlərindən birini tutmaq lazımdır. Bu zaman dövlət sifarişi və ya ödənişli əsaslarla təhsil almanın fərqi yoxdur.